**UOT 94**

# X ƏSRİN ƏRƏBDİLLİ MÜƏLLİFİ ƏBU MƏNSUR ƏS-SƏ`ƏLİBİ SASANİ İMPERİYASINDA DİNİ-SİYASİ HADİSƏLƏRƏ DAİR (MƏZDƏKİLİK HƏRƏKATI)

**Aytac ŞİRƏLİYEVA**[*]

**Açar sözlər:** *mənbə, dini hərəkatlar, əs-Sə`əlibi, Bəmdadın oğlu Məzdək, sasanilər dövrü*

## *XÜLASƏ*

Sasanilər dövlətində, o cümlədən Azərbaycanda iqtisadi, siyasi və ictimai istismar burada əkinçilərin və maldarların rəsmi hakimiyyətə qarşı çoxsaylı dini-ictimai hərəkatlarına səbəb olmuşdur. Bu etirazlar müxtəlif formalarda təzahür etsədə onların mahiyyəti eyni idi: ağır vergi sistemi, feodal istismarı, feodalların ara müharibələri, bu hallara qarşı ictimai narazılığa gətirib çıxarırdı. Dövrün zərdüşti din xadimləridini prinsipləri öz maraqlarına müvafiq olaraq uyğunlaşdırmış, onu özlərinin ictimai-siyasi maraqlarına tabe etmiş, bununla da cəmiyyətdə rəsmi zərdüştlıyə qarşı ciddi narazılıq yaratmışdılar. Zaman keçdikcə Sasani şahənşahlarının dini siyasəti, din xadimlərinin ədalətsiz əməlləri çoxsaylı dini-islahatçı hərəkatlara səbəb olmuşdur. Manilik və məzdəkilik hərəkatları bu dövrün əsas, mühüm etiraz çıxışları idi.

İslamaqədərki imperiyalardan biri olan Sasani dövlətində hakim dini təsisatlar zərdüştilik ideologiyasına əsaslanırdı. Sasani şahənşahları bu dinə himayəçilik etməyə başlamış, zərdüştilik onların böyük imperiya yaratmaq ideyalarının tərkib hissəsi olmuşdur. Vaxtilə (er.əv. VI-IV əsrlərdə) Əhəməni hökmdarları öz dövlətlərini zərdüştiliyin müddəalarına, ideyalarına əsasən qoruyubsaxlamışlar.Lakin məhz Sasani şahənşahları rəsmi dini baxışlarda zərdüştiliyi nəinki dəstəkləyir, həmçinin özləri də bu dinə etiqad edirdilər. Sasanilər dövründə zərdüştiliyin dini simvolikası rəsmi sənədlərdə əks olunur, onun prinsipləri inzibatçılıqda və hüquqşünaslıqda geniş tətbiq olunurdu. Dövlət təbəələrin dini həyatına ciddi nəzarət edir, bunun müqabilində digər ideoloji baxışları və təriqətləri gözdən salmağa, məhvetməyə çalışırdı. Zərdüştiliyin dini mətnlərində "dövlətin və dinin ayrılmaz vəhdət təşkil etdiyi" təbliğ olunurdu.

Sasanilər dövlətində, o cümlədən Azərbaycanda iqtisadi, siyasi və ictimai istismar burada əkinçilərin və maldarların rəsmi hakimiyyətə qarşı çoxsaylı dini-ictimai hərəkatlarına səbəb olmuşdur. Bu etirazlar müxtəlif formalarda təzahür etsədə onların mahiyyəti eyni idi: ağır vergi sistemi, feodal istismarı, feodalların ara müharibələri, bu hallara qarşı ictimai narazılığa gətirib çıxarırdı.

Dövrün zərdüşti din xadimləridini prinsipləri öz maraqlarına müvafiq olaraq uyğunlaşdırmış, onu özlərinin ictimai-siyasi maraqlarına tabe etmiş, bununla da cəmiyyətdə rəsmi zərdüştlıyə qarşı ciddi narazılıq yaratmışdılar. Zaman keçdikcə Sasani şahənşahlarının dini siyasəti, din xadimlərinin ədalətsiz əməlləri çoxsaylı dini-islahatçı hərəkatlara səbəb olmuşdur. Manilik və məzdəkilik hərəkatları bu dövrün əsas, mühüm etiraz çıxışları idi.

Zərdüştilik təlimi, manilik, məzdəkilik ideologiyasının prinsipləri bir çox Şərq cəmiyyətlərinin ictimai-siyasi və dini həyatına ciddi təsir göstərmişdi. Azərbaycan da bu təsirdən, həmin təlimlərin xüsusiyyətlərinin və səciyyəvi cəhətlərinin nüfuz dairəsindən kənarda deyildi. Qeyd edək ki, dini təlimlərin təşəkkülü, təkamülü prosesinin tədqiqi həmişə ciddi tarixitədqiqatların obyekti olmuşdur. Biz Sasani dövründə Azərbaycanda dini həyatda baş vermiş hadisələrin ardıcıllığını öyrən-

[*] *t.ü.f.d., Bakı Dövlət Universiteti*
*E-mail: aytajshiraliyeva@gmail.com*

məyə, məşhur ərəbdilli müəllif Əbu Mənsur əs-Sə`əlibinin ictimai hərəkatlara, dini təlimlərə münasibətini, əsərdə Azərbaycanın bu hadisələrdə iştirakının və rolunun təsviri tərzini və səviyyəsini araşdırmağa çalışacağıq.

Məzdək hərəkatı III-VII əsrdə Yaxın və Orta Şərqdə, o cümlədən Azərbaycanda ən irimiqyaslı hərəkatlardan biri olmuş, zəhmətkeşlərin Sasani imperiyasında tüğyan edən ağır istismara, vaxtaşırı baş verən müharibələrə, təbii fəlakətlərə, sosial zülmə cavabı kimi baş vermişdir.

Mənbələrdə Məzdək hərəkatı, onun ictimai mahiyyəti haqqında ətraflı məlumatlar verilir. Əbülqasim Firdovsi pəhləvi mətnlərinə əsaslanaraq "Şahnamə" poemasında Məzdək hərəkatı haqqında məlumatlar vermişdir (2). Əs-Şəhristani, ət-Təbəri, əl-Məsudi, Nizamülmülk və başqa müəlliflər öz əsərlərində Məzdək təliminin izahını təqdim etmiş və bu hərəkatın gedişini əks etdirmişlər (1, s.173).

Məzdəki (470-529) "Maninin ideoloji və siyasi davamçısı" hesab etmək olar. O, hakim Sasani dairələrinə qarşı yönəlmiş üsyanın başında durmuşdu. Sosial problemləri önə çəkən Məzdəkin təlimi tarixi Azərbaycanın ərazilərində də yayılmağa başladı. Məzdəkiliyin əsas ideya mənbələri erkən Zərdüştiliyin ideyaları, maniliyin ayrı-ayrı prinsipləri təşkil edirdi. Məzdəkin fikirlərinə görə, dünyəvi proseslərin əsasında Nur və Zülmət başlanğıcla qaranlıq başlanğıclarının müharibəsi durur.

V əsrin sonunda – VI əsrdə Sasani imperiyasında baş vermiş mühüm hadisələrdən olan Məzdək hərəkatı həm cəmiyyətdə baş vermiş mənfi ictimai dəyişikliklərin, həm də rəsmi din xadimlərinin özbaşnalığına qarşı yönəlmişdi. Hər bir iri ictimai və ideoloji cərəyan kimi, o, da zamanının gerçəklikləri ilə bağlı olmuşdur.

Məzdəkilər sosial bərabərsizliyi "qeyri-qanuni" hesab edir və "varlıların əmlakının kasıblara paylanmasını" tələb edirdilər. Şəhristaninin qeydinə görə,Məzdək demişdi: "Əmlak insanların arasında paylanmış bir sərvətdir. İnsanlar Allah – Təalanın və Adəmin övladlarıdır, ehtiyac duyanlar bir-birinin var-dövlətini xərcləməlidirlər ki, heç kim hec nəyə ehtiyac duymasın, hamı bərabər vəziyyətdə yaşasın" (1, s.171). Oğurluq, yalan, istismar məzdəkilər tərəfindən tənqid olunur, sosial bərabərlik isə təbliğ edilirdi.

Məlumdur ki, 4 təbəqəyə bölünmüş Sasani cəmiyyətində vergilərin ağırlığı məhz zəhmətkeş əhalinin üzərinə düşürdü və əhalinin istismarında üç sosial təbəqə iştirak edirdi. Kəndlilərin vəziyyəti çox ağır idi.Təsərrüfat inkişaf etdikcə kəndlilər və mülkədarlar arasında qarşıdurma daha da kəskinləşdi. Bu qarşıdurmalar məhəlli səciyyə daşıyırdı. Lakin bəzi hallarda etiraz çıxışları bir kəndi, əyaləti əhatə edirdi.

İmperiya əhalisinin çox hissəsi iqtisadi cəhətdən üç tərəfdən istismara məruz qalırdı: dövlətin, kahinlərin və ali təbəqənin. Vergilərin saysız-hesabsız olması istismarçıların törətdiyi qanunsuzluqların bariz nəticəsi idi. Məzdəki təlimi ruhunda formalaşmış bir çox ruhanilər dövlətə və cəmiyyətə böyük təsir göstərirdilər. IV-V əsrlərdə Sasani dövlətində dövlət və kahinlər arasında fikir ayrılığı yaranmışdı. Ammian Marsellinin ifadəsincə,"kahinlər dövlət içində dövlət idi". Bu dövrdə baş vermiş anlaşılmazlıqlar qismən maddi və insan ehtiyatları tələb edən Sasani hakimiyyətinin təcavüzkar siyasətinin nəticəsi idi. Bu siyasət təsərrüfatın dağılmasına, əhalinin vəziyyətinin pisləşməsinə gətirib çıxarırdı.

Təşəkkül tapmış yeni ideologiyanın, əziyyət çəkən əhalinin əhvalını ifadə edən bir ideoloji sistemin yaranmasına ehtiyac var idi. Bəmdadın oğlu Məzdək həmin ideologiyanın banisi oldu. O, ilk dəfə olaraq öz təlimini Həmədan bölgəsində yaymağa başlamışdı (1, s.171-172).

Məzdəkilik təlimində dini dualizm (iki başlanğıcın mövcudluğu) öz əksini tapmışdır:bir-biri ilə əbədi mübarizə aparan Xeyir və Şər. Məzdəkilik təlimində Xeyirin Şər üzərində qələbəsinin mümkünlüyü fikri hökmrandır. Məzdəkilər kahinlərin fikirlərinin əksinə olaraq "cəmiyyətdə ədalətsizliyin hökmranlıq etdiyini" qeyd edirdilər.Məzdəkilər əsasən şəxsi mülkiyyətə qarşı çıxırdılar. Bu təlimə görə, şəxsi mülkiyyətdeyil, ümumi mülkiyyət olmalıdır. Məzdəkin fikrinə görə, yeganə mülkədar Tanrıdır və o, öz mülkiyyətini bütün insanlara bərabər şəkildə, müvəqqəti istifadə üçün vermişdir (3, s.217).

Məzdək Xeyiri tərənnüm edərək qeyd edirdi ki, "İnsan xeyir işlər görmək üçün yaradılmışdır, digər insanları aldatmaq, öldürmək, istismar etmək, onların var-yoxunu əlindən almaq, sıxışdırmaq, işləməyə vadar etmək olmaz". O, tələb edirdi ki, insanlar öz var-dövlətindən imtina edib onları kasıblar arasında bölsünlər. Məzdəkin tərəfdarları bütövlükdə bərabərsizliyə qarşı çıxırdılar. Məzdəkilər "cəmiyyətin üzvləri arasında bərabərliyi bərpa etməyə" "bu bərabərliyə vətəndaş münasibətlərində də tabe olmağa" çağırırdılar.

Sasani imperiyasının mərkəzi vilayətlərində Məzdəkilər hərəkatı daha güclü idi, kahinlərə və mülkədarlara qarşı yönəlmiş şuarlar daha geniş yayılırdı.

Məzdəkilik hərəkatının genişlənməsi bir çox uzaqgörən siyasi xadimləri, o cümlədən şahənşah I Qubadın diqqətini cəlb etmişdi. I Qubad və Məzdək arasında baş vermiş görüş tarix ədəbiyyatında, yazılı qaynaqlarda özünün əksini tapmışdır. Mənbələrdən məlumdur ki, I Qubad və Məzdək arasında dostluq münasibətləri yaranmışdı. Güman etmək olar ki, Məzdəkin ideyaları və şəxsiyyəti I Qubadı cəlb etmişdi. Lakin bu dostluğun əsas səbəbi I Qubadın hakimiyyətinin zəifləməsi idi. Beləki, bu dövrdə kahinlərin və yuxarı təbəqənin hakimiyyəti xeyli güclənmişdi və onlar şahənşahın hakimiyyətinə tabe olmaqdan imtina edirdilər. Kahinlər və ali təbəqə hətta onu "devirməklə" hədələyirdilər. Şahənşah bu qarşıdurmada öz tərəfdarlarını artırmaq məqsədilə hərəkatın başçısı Məzdəklə müqavilə imzalamışdı. Bu müqavilə iki tərəfin məqsədlərinə uyğun gəlirdi: Məzdək kahinlərə qarşı idi, bu zümrənin yox edilməsinin tərəfdarı idi, I Qubad isə bəzi kahinləri yeniləri ilə əvəz etmək istəyirdi (4, s.158-160).

Bir çox alimlərin, tədqiqatçıların Məzdək hərəkatını araşdırmasına baxmayaraq, həmin hərəkatın başlanma tarixi hələdə mübahisə obyekti olaraq qalır. Lakin çoxsaylı mənbələrin təhlili bizi bu nəticəyə gətirib çıxarır ki, məzdəkilər hərəkatının başlanması I Qubadın birinci hakimiyyətinin sonlarına (496-cı ilə) təsadüf edir.Qubadın hakimiyyətə qayıdışında məzdəkilərin böyük rolu olmuşdur.

XII əsrin farsdilli müəllifi İbn Bəlxi (850-934) "Əşkəl əl-biləd" ("Ölkələrin növü") adlı əsərində məlumat verir ki, I Qubad Azərbaycana qaçmış və burada həmkarları ona hörmətləyanaşmışlar.

Bəzi mənbələrdə qeyd olunur ki, I Qubad həbsdən qaçarkən Eftalit hökmdarının yanına getmiş və orada sığınacaq tapmışdı. Məhz buna görə də I Qubad Eftalit ordusunu Bizans imperatorunun hər il "Bizans sərhədlərini hunların hücümundan qoruduğu üçün" Sasani şahənşahına ödədiyi 5500 qızılla mükafatlandırmaq istəyirdi. Lakin I Qubadın bu cəhdi uğursuzluqla nəticələndi: Bizans – Sasani müharibəsi başlandı. Bu müharibədə Sasani ordusu qələbə qazandı və tərəflər arasında 7 illik müqavilə imzalandı (4, s.159).

Biz əsasən ərəb-fars qaynaqlarına istinadən təxmin edə bilərik ki, məzdəkilərin məğlubiyyəti 529-cu ilə təsadüf edir. Belə ki, I Qubad həmin ildə məzdəkiləri bir yerə cəmləşdirərək onlardan "təlimlərinin düzgünlüyünü təsdiq etmələrini" tələb etmiş, Məzdək isə bunu edə bilməmişdi. Məhz bundan sonra I Qubad Xosrova "onlarla istədiyi kimi rəftar etməyi" tapşırmışdı. Xosrov isə məzdəkilərə qarşı olduğuna görə, öz ordusuna "onları yerlə-yeksan etməyi"əmr etmişdi.

Əbu Mənsur əs-Sə`əlibi məzdəkilər hərəkatı haqqında ətraflı məlumat vermiş, əsərinin Məzdəkə, onun təliminə həsr olunmuş hissəsində onun xarici görkəmini təsvir etmişdir: "Bamdad oğlu Məzdək insan cildində olan iblis (şeytan – A.Ş.) idi. O, sifətdən yaraşıqlı olsa da, təbiətcə pis idi. Görkəmi mükəmməl, lakin qəlbi boş idi. Dili çox şirin, lakin əməlləri çox murdar idi. O, Qubadı ələ keçirmək üçün onun ətrafında fənd işlədərək özünə yol açmağa başladı, xəyanətkar dili ilə onu özünə tabe edə bildi. Məkrli dili ilə şahənşahı tilsimə salıb sehrlədi, ona çoxlu xəyallar, ümidlər verdi, elə yalan tələsi qurdu ki, onu özünə tabe etdi və tamamilə onun ağası oldu. Qubad kor kimi onun göstərdiyi istiqamətə hərəkət edir, özünün idarə olunmasına razılıq verirdi. O, Məzdəkin gözləri ilə görür, onun qulağı ilə eşidirdi" (5, s. 596).

Əbu Mənsur əs-Sə`əlibi "yeni təlimin" yayılmasında rolu olmuş I Qubadla Məzdəkin dialoqunu da öz əsərində qeyd etmişdir: "Baxaq və görək ki, Məzdək tərəfindən alovlandırılmış vətəndaş müharibəsinin ilk nümayişi hansı şəraitdə həyata keçirildi. Bəzi illərdə quraqlıq, aclıq kasıbların, səfillərin, acların böyük bir hissəsini qırdı. Bütün bunlar Məzdəkin niyyətinin həyata keçməsi üçün bir fürsət idi. Bir gün Məzdək Qubada belə dedi: "İcazə verin sizinlə çox ağır olan bir məsələni müza-

kirə edim". Şah dedi: "İcazə verirəm". Məzdək dedi: "Rəhmli hökmdar, əgər bir adamın əlində nəzəri bilik varsa, digərini zəhərli ilan sancmışsa və bu təlim vasitəsiləxilas edilə bilərsə,o, həmin təlimdən istifadə etmirsə, onun cəzası nədir?" Qubad cavab verdi: "Həmin adam öldürülməlidir". Məzdək onun cavabından çox sevinərək qarşısındakı yeri öpdü və onu təbrik etdi. Ertəsi gün o, kasıbları, səfilləri, bütün qara camaatı Qubadın sarayının qarşısına topladı və toplaşanlara elan etdi ki, "onları belə ölüm çadırında yaşamağa vadar edənləri tapacaq". Sonra Məzdək Qubada dedi: "Şahənşahım, dünən mən Sizinlə mənə əzab verən bir çətinlik haqqında danışanda Sizin verdiyiniz cavab məni sevindirdi,məni şübhəli qaranlıqdan haqq, ədalət işığına çıxardı. Lütf edib bu gün mənə başqa bir çətinliklə bağlı olan sual verməyə icazə verin. Həmin məsələ mənim ürəyimi sıxır." Qubad dedi: "Sualını ver". Məzdək sözə başladı: "Bir imkansızı bir evdə həbs edib ona yemək verməyən, öldürmək istəyən bir adam haqqında nə deyərdiniz?" Qubad cavab verdi: "O, ölümə məhkumdur". Məzdək bir daha şahənşahın qarşısındakı yeri öpdü və ona minnətdarlıq etdi. Sonra o, sarayın qarşısında toplanmış qara camaatın yanına getdi və onlara dedi: "Mən şahənşahla sizin vəziyyətinizi yaxşılaşdırmaq haqqında danışdım.Mən ondan sizlərlə varlılar arasında bərabərlik haqqında əmrə nail oldum. İndi gedin, sizə çatan hissəni götürün, bu sərvətləri azad şəkildə bölüşdürün və əldə etdiyiniz ərzağı ümumi yerdə qoruyun". Onda bu aclar buğda dükanlarının üstünə tökülüşdülər, oradan bacardıqları qədər buğda götürdülər. Məzdəkin dediyinə görə, şahın bu barədə fərmanı vardı. Qubad bu hadisələrdən xəbər tutub Məzdəki yanına çağırtdırdı və ona dedi: "Sən bu kasıblara, qara camahata buğda dükanlarını talan etməyə göstəriş vermisənmi?" Məzdək cavab verdi: "Yox, bu əmri siz vermisiniz". Şahənşah soruşdu: "Nə vaxt?" Məzdək cavab verdi: "Mən Sizdən ilan sancmış birisini xilas etməyə əlində təlimi olan adam haqqında ittiham irəli sürməyi xahiş etdiyim zaman. Ac olan insan üçün aclıqdan ağır sanı olmadığı kimi, çörəkdən böyük xilas nəzəriyyəsi yoxdur. Mən Sizdən birinin imkansızı evində saxlayıb yeməkdən məhrum edənin, onu öldürənin haqqında qərar verməyinizi xahiş etdikdə cavab verdiniz ki, o adam ölməlidir. Varlı insanlar yaşamaq üçün sahib olduqları həddən artıq olan ehtiyatları aclara vermir, onları aclıqdan öldürürlər. Sizin sözlərinizə görə, onlar ölməlidir. Dini hökmlərə, və qanunlara görə, onlara qazandıqları ölüm hökmü verilməlidir. Gəlin onları öldürməyək. Lakin onların artıq ərzaq ehtiyatları kasıblara paylanmalı, kasıblar və varlılar eyni hüquqa malik olmalıdırlar. İmkanlılar və kasıblar Tanrının qoyduğu qaydalarla ərzaqdan istifadə etməlidir. Yaradan hamını bərabər yaratmışdır". Qubad bir qədər susdu, sonra isə dedi: "Sən ədalət haqqında sözlərimlə silahlanaraq mənə qarşı onlardan istifadə edirsən!" (5, s.597-599).

Əbu Mənsur əs-Sə`alibi sonrakı hadisələrin gedişini bu cür təqdim edir: "Kasıblar, xalqın aşağı təbəqəsi, ümumən kütlələr Məzdəki xoşlayırdı. İnsanlar ona möhkəm bağlı idilər, ona peyğəmbər kimi sitayiş edirdilər. Məzdək yalanları ilə tədricən daha uzaqlara gedərək Tanrının adından vəhylər də uydurmağa başlamış və demişdi: "Tanrı yer üzərindəki bütün nemətləri yaratmışdır ki, bütün insanlar onları öz aralarında bərabər şəkildə bölsünlər. Elə bölsünlər ki, birinin neməti digərindən artıq olmasın". O, deyirdi: "Lakin adamlar bir-biri ilə mübahisə edir, təhqiredici sözlər işlədir, güclülər zəifləri əzir, başqalarının qismətinə gözdikir, ərzağına və var-dövlətinə əl uzadır. Artıq olan nemətləri varlılardan tamamilə götürüb kasıblara vermək lazımdır ki, hamının əmlakı bərabər olsun". Aşağı təbəqə və ümumən kütlə bu hiyləgər təlimi əsas tutaraq hər şeyə əl atır, qəddarlıq və kobudluq nümunələri göstərir, mülkləri talayır, qadınları aparır, ağıllarına gələn qarışıqlığı yaradırdılar. Qubad onların cinayətkar əməllərinə göz yumurdu. Çünki o,artıq həmin dələduzların əməllərini çərçivəyə salmaq gücündə deyildi" (5, s.600).

Əbu Mənsur əs-Sə`alibi məzdəkilərin əməllərini bu cür dəyərləndirir: "Məzdəkin tərəfdarları zəif iradəli Qubada deyirdilər: "Əgər bizim nəzəriyyəni qəbul etməsən, istədiyimizi etməsən, boğazını quzu boğazı kimi üzərik". Məzdəkilər, Ona ətrafı ilə məsləhətləşməyə imkan vermir, bütün qohum-əqrəbasını ondan uzaqlaşdırırdılar. Qubadın oğlu Kisra Ənuşirəvan Məzdəkin təlimini rədd edir, onu "murdar"hesab edirdi. O, din və dövlət üçün çox qeyrətli və çalışqan gənc idi. Kisra Ənuşirəvan atasını inandırdı ki, din xadimlərinin və Məzdəkin birgə yığıncağını çağırsın. Nəhayət, bir gün belə iclas çağırıldı və Məzdəkə dedilər: "İnsanlar birgə arvadlara və var-dövlətə sahib olduqda öz uşaqlarını necə tanıyacaqlar və valideyinlik məsələsi necə həll olunacaq? Hamı bərabər olanda

belə çıxır ki, işgüzarlar tənbəllər üçün də işləyəcəklər. Belə vəziyyətdə dünya məhv olmaya bilərmi-?" Məzdək əsəbi tərzdə yerindən qalxdı, onun tərəfdarları da ətrafında cəmləşdilər. Məzdəkilər Qubadın və Kisranın həyatına qəsd etmək istədilər. Onlar tədricən qəzəblənərək qanunlara meydan oxumağa başladılar. Qubad məzdəkilərə mane olmaqda və onların qarşısını almaqda acız idi. O, məzdəkilərə üz verdiyinə görə peşimançılıq hissikkeçirirdi" (5, s.601-602).

Məzdəkilərin çıxışları artmaqda idi. I Qubadın hakimiyyəti isə zəifləyirdi. Şahənşah kədərdən yatağa düşdü. O, Ənuşirəvanı özünün varisi elan etdi, hakimiyyəti ona təhvil verib dedi: "Oğlum, yaratdığım xarabalığı, səbəb olduğum bədbəxtlikləri aradan qaldırmağı yalnız sən bacararsan. Ölkədə qanun-qaydaları bərpa etməklə atanı əvəz et, dövləti dirçəltməkdə Tanrını köməyə çağır və işə başla". Sonra isə o, səfil kimi öldü. Nəhayət, insanlaronun zəif hökmranlığından xilas ola bildilər" (5, s.603).

Əbu Mənsur əs-Sə`əlibi Məzdəkilər hərəkatına divan tutulmasını ətraflı şəkildə təsvir etmişdir: "O, (Xosrov Ənuşirəvan-A.Ş.) bütün şahənşahlardan ən xoşbəxti, ağıllısı, ən yüksək düşüncəlisi, ən ədalətlisi, əsil-nəcabətinə görə ən əlası, ən bəxtəvəri idi. Xosrov Ənuşirəvan çox ağır bir məqamda Məzdəkilər hərəkatının geniş vüsət aldığı bir zamanda, hədlərini aşdığı bir anda hakimiyyətə sahib oldu. O, əyanları, məmurları bir yerə toplayıb vacib məsələlərin həllinə başladı. O, qəti qərara gəldi ki, dövlət ərazisində qanunlar fəaliyyət göstərməlidir. O, Məzdəki və onun silahdaşlarını aradan götürməyə hazırlaşdı. İbn Xordadbeh yazmışdır ki, bir gün şahənşah ətrafındakılara müraciət edərək belə dedi: "Mən Allahdan üç şey arzulamışdım. Allah şahənşahlıq hakimiyyətini mənə verdi."Ərəblərin şahı olmaq" arzusuna da çatdım. İndi isə bircə arzum qalır". Məclis iştirakçıları həmin arzunun nə olduğunu soruşduqda Xosrov dedi: "Allahsızları məhv etmək!". Məzdək şahənşahdan soruşdu: "Kişilərin əksəriyyətini öldürə biləcəksənmi?" Şahənşah soruşdu: "Sənətkar oğlu, sən də buradasan?" Şahənşahın əmri ilə Məzdəki tutdular və boğaraq meyidini dar ağacından asdılar. Məzdəkilər qisas almaq üçün hücuma keçdilər, lakin geriyə sıxışdırıldılar və istədiklərini edə bilmədilər. Əsgərlər onları pəncələri ilə əzdilər, onları torpağın üstünə uzanmağa məcbur etdilər. Kisra əhaliyə müraciət edərək "məzdəkiləri hər yerdə axtarmağı, onları həbs etməyi" əmr etdi. 80 min məzdəki tutuldu. Kisra onların qanını yalnız bir şəhərdə tökdü. Məhz həmin gündən etibarən onu "Ənuşirəvan" adlandırmağa başladılar (5, s.603-605).

Əbu Təmmam Məzdəkə və onun tərəfdarlarına qarşı olan hücumdan bəhs edən şeirində qeyd edir ki, "Məzdəkilər Ənuşirəvana dərs verməyə çalışdılar, lakin bu, o qədər də asan deyildi" (5, s.606).

Məzdəkilər xilas olmaq məqsədilə Azərbaycanın, Deyləmin, Təbəristanın (Mazandaranın – A.Ş.) dağlıq bölgələrinə qaçdılar və oralarda özlərinə sığınacaq tapdılar.

Qeyd edək ki, zərdüştilik və manilik kimi, məzdəkilik təlimi də gələcəkdə Azərbaycanın, Ön Asiyanın ideoloji,siyasi həyatına böyük təsir göstərmiş, bir çox sosial, siyasi, dini etiraz çıxışlarının, azadlıq hərəkatlarının, dini təriqətlərin ideoloji mübarizə vasitəsinə çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Fazili A. Atropatena e.ə. IV – e.VII əsri. Bakı: Azərbaycan EA Tarix İnstitutu, 1992, 215 s.
2. Firdovsi Ə. Şahnamə. Tərcümə M.Əlizadə. Bakı: Yazıçı, 1986, 331 s.
3. Бартольд В.В. Сочинения: В9-ти томах. Т. II. Ч 1. Москва: Наука, 1963, с. 207-223.
4. Бойс М. Зороастрийцы. Верования и обычаи. Пер.с англ. И.М.Стеблина-Каменского. Под ред. И с послесл. Э.А. Грантовского. Москва: Наука, 1987, 316 с.
5. Zotenberg H. Histoire des Rois des Perses par Abou Mansour 'Abd Al-Malik Ibn Mohammad Ibn Ismail Al-Tha'alibi. Imprimerie nationale, Paris: 1900, p. 816.

***РЕЗЮМЕ***

***Айтадж ШИРАЛИЕВА***

***Арабоязычный писатель X века Абу Мансур Ас-Саалиби о религиозно-политических событиях в Сасанидской империи (Движение Маздакидов)***

***Ключевые слова:*** *источник, религиозные течения, ас-Саалиби, Маздак, сын Бамдада, сасанидский период*

Экономическая, политическая и социальная эксплуатация в Сасанидском государстве, в том числе и в Азербайджане, привела к многочисленным религиозным и общественным движениям земледельцев и скотоводов против официальной власти. Хотя эти протесты проявлялись в разных формах, суть их была одна и та же: тяжелая налоговая система, феодальная эксплуатация, феодальные войны, что приводило к общественному недовольству этим положением.

Зороастрийские священнослужители того времени подгоняли принципы религии под свои интересы, подчиняли ее своим общественным и политическим интересам, тем самым вызывая серьезное недовольство в обществе против официального зороастризма. Со временем религиозная политика сасанидских царей и несправедливые действия духовенства привели к возникновению многочисленных религиозно-реформаторских движений. Движения Манихейство и Маздакизм были главными и важными выступлениями протеста этого периода.

***SUMMARY***

***Aytaj SHIRALIYEVA***

***Arabic-Speaking Writer of the 10th Century Abu Mansur As-Saalibi about Religious and Political Events in the Sasanian Empire (Mazdakid Movement)***

***Keywords:*** *source, religious movements, as-Saalibi, Mazdak son of Bamdad, Sasanian period*

Economic, political, and social exploitation in the Sassanian state, including in Azerbaijan, led to numerous religious and social movements of farmers and pastoralists against the official government. Although these protests took different forms, their essence was the same: a heavy tax system, feudal exploitation, and feudal wars, which led to public dissatisfaction with this situation.

The Zoroastrian clergy of that time adjusted the principles of religion to suit their interests, subordinated it to their social and political interests, thereby causing serious discontent in society against official Zoroastrianism. Over time, the religious policies of the Sassanian kings and the unfair actions of the clergy led to the emergence of numerous religious reform movements. The movements of Manichaeism and Mazdakism were the main and most important protest movements of this period.